# Dünyanın iqtisadi gündəliyinin müzakirə olunduğu platforma




**(əvvəli 1-ci səhifədə)**

Əvvəla, Davos İqtisadi Forumunda (DİF) Azərbaycan Prezidentinin iştirak etməsi o anlama gəlir ki, rəsmi Bakı Davos İqtisadi Forumuna xüsusi önəm verir. Azərbaycanın bu forumda ən yüksək təmsilçiliklə aktiv iştirakı ölkəmizin siyasi, iqtisadi, təhlükəsizlik maraqları, dünya birliyi ilə əlaqələrin daha da sıxlaşdırılması üçün çox ciddi əhəmiyyətə malikdir. Dünya İqtisadi Forumu siyasətçiləri, biznes adamlarını və ictimai təşkilatları bir araya gətirən və dünyada baş verən iqtisadi proseslərin, dünyanın iqtisadi gündəliyinin, habelə ictimai-siyasi proseslərin müzakirə olunduğu ən böyük platformalardan biridir. Forum dünyada gedən iqtisadi meyillər haqqında dolğun məlumat əldə etməyə geniş imkan verir.

Davosda səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev qarşı tərəflərin müraciətləri əsasında bir sıra dünyanın tanınmış nüfuzlu şirkətlərinin rəhbərləri ilə görüşlər keçirib.

Azərbaycan Prezidenti İlham Əliyevin "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə görüşündə Azərbaycan ilə "The Goldman Sachs Group Inc." şirkəti arasında əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb. Ölkəmizlə şirkət arasında 2010-cu ildən uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla vurğulanıb. Azərbaycan Respublikası Dövlət Neft Fondunun "The Goldman Sachs Group Inc." ilə uğurlu tərəfdaşlığının ölkənin maliyyə sektorunun inkişafı və beynəlxalq investisiya imkanlarının genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olunub. Cared Kohen təmsil etdiyi şirkətin qlobal miqyasda maliyyə və investisiya sahələrində fəaliyyətindən danışaraq, Azərbaycanla əməkdaşlıqdan məmnunluğunu ifadə edib.

Qeyd edək ki, 1869-cu ildə təsis edilmiş və mənzil-qərargahı ABŞ-ın Nyu-York şəhərində yerləşən "The Goldman Sachs Group Inc." investisiya və istehlak bankçılığı, qiymətli kağızlar, aktivlərin idarə edilməsi sahələrində xidmət göstərən aparıcı qlobal maliyyə institutudur. Şirkət hazırda 40-dan çox ölkədə fəaliyyət göstərir və müxtəlif siniflər üzrə 2,8 trilyon ABŞ dolları dəyərində aktivləri idarə edir.

"DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə görüşdə şirkətlər qrupunun ölkəmizdəki fəaliyyətinin perspektivləri, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin yaratdığı imkanlar barədə müzakirələr aparılıb. Azərbaycanın regional nəqliyyat qovşağı kimi rolu xüsusi vurğulanıb, mümkün əməkdaşlıq istiqamətləri müzakirə olunub. Qeyd edək ki, "DP World" dünyanın ən böyük liman operatorlarından biridir. Şirkət coğrafi cəhətdən şaxələndirmə baxımından da liderlər sırasındadır. Hazırda "DP World" dünyanın müxtəlif yerlərində 80-ə yaxın limanın operatorluğu ilə məşğuldur.

Azərbaycan Prezidenti İlham Əliyev "OliverWyman Group" şirkətinin Baş icraçı direktoru Nik Stader ilə görüşüb. Nik Stader "OliverWyman Group" şirkətinin beynəlxalq strateji idarəedici şirkət olaraq ölkəmizdə müxtəlif qurumlarla mümkün əməkdaşlıq istiqamətlərinə toxunub, Azərbaycanın iqtisadi transformasiya prosesinin, sığorta, maliyyə bazarının müxtəlif istiqamətlərinin inkişafı, enerji sektorunda, o cümlədən ənənəvi və yaşıl enerji sahələrində həyata keçirilən layihələrə, kənd təsərrüfatı məhsullarının ixracına, bölgədə yeni ticarət imkanlarını əhatə etməklə dəyər zəncirinin lokallaşdırılmasına maraq göstərdiklərini qeyd edib. O, Azərbaycanın əldə etdiyi uğurları yüksək qiymətləndirib. Dövlət başçısı şirkətin Azərbaycana marağını dəstəkləyərək, ölkəmizin müvafiq qurumları ilə "OliverWyman Group" arasında əməkdaşlığın qurulması məsələlərinə toxunub.

Azərbaycan Prezidenti İlham Əliyev "Carlsberg Group" şirkətinin Baş icraçı direktoru Yakob Aarup-Andersen ilə görüşüb. Yakob Aarup-Andersen rəhbərlik etdiyi şirkətin Azərbaycanda uğurlu fəaliyyətinə toxunaraq, ölkəmizdə mövcud olan investisiya mühitindən razılığını ifadə edib, xüsusilə mülkiyyət hüquqlarının qorunması istiqamətində Azərbaycanın xarici investorlara təqdim etdiyi çərçivəni yüksək qiymətləndirərək, yaradılmış şəraitə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib. "Carlsberg Group"un ölkədə istehsal olunan məhsullarının lokallaşdırılma səviyyəsinin artırılması və şirkətin Azərbaycandakı fəaliyyətinin genişləndirilməsi ilə bağlı niyyəti barədə dövlət başçısına məlumat verilib. Görüşdə "Carlsberg Group" şirkəti ilə əməkdaşlıq məsələləri müzakirə olunub.

Azərbaycanla Dünya İqtisadi Forumu arasında səmərəli tərəfdaşlıq xüsusi əhəmiyyəti ilə təqdir olunur. Bu konteksdən Davos İqtisadi Forumunun Azərbaycan üçün bir çox üstünlükləri var. Ötən il yanvarın 22-də Azərbaycan Prezidenti İlham Əliyev Davos Dünya İqtisadi Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda keçirilən panel iclasında iştirak edib. "Etimadın bərpası" devizi altında keçirilən forumun məqsədi kollektiv fəaliyyət azadlığını bərpa etmək və liderlər arasında şəffaflıq, ardıcıllıq və hesabatlılıq kimi əsas prinsipləri gücləndirmək idi. Bir həftə ərzində toplantıda 100-dən çox hökumət və dövlət başçısı, aparıcı beynəlxalq təşkilatların rəhbərləri və Forumun 1000 tərəfdaş şirkəti, eləcə də vətəndaş cəmiyyətinin liderləri, qabaqcıl ekspertlər, gənc liderlər, sosial sahibkarlar və media təmsil olunub.

Xatırladaq ki, ulu öndər Heydər Əliyev ilk dəfə 27-31 yanvar 1995-ci ildə Ümumdünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrənin Davos şəhərində işgüzar səfərdə olub. Azərbaycan Respublikasının DİF-də ilk dəfə iştirakı münasibətilə forum çərçivəsində Azərbaycana həsr olunan görüş keçirilib və Heydər Əliyev ölkə haqqında, onun siyasi, iqtisadi və sosial-mədəni inkişaf göstəriciləri barədə tədbir iştirakçılarına geniş məlumat verib.

Prezident Heydər Əliyev 27-30 mart 2000-ci ildə Davosda "Qafqazın və Mərkəzi Asiyanın perspektivləri: İpək yolu və ya böyük oyun" mövzusunda keçirilən sessiyada iştirak edib. Səfər çərçivəsində Heydər Əliyev Dünya İqtisadi Forumunun prezidenti Klaus Şvab ilə görüşüb. Klaus Şvab dünyanın bütün ölkələrinin Qafqaza böyük maraq göstərdiyini bildirib, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə dair imzalanmış sazişi Azərbaycanın bütün dünyada nüfuzunun daha da artmasının əyani nümunəsi kimi dəyərləndirib.

Prezident İlham Əliyev də dəfələrlə Davos İqtisadi Forumunda Azərbaycanı təmsil edib, burada iştirak edən müxtəlif ölkələrin dövlət və hökumət başçıları, iri şirkətlərin rəhbərləri, beynəlxalq təşkilatların səlahiyyətli nümayəndələri ilə görüşərək danışıqlar aparıb. Qeyd edək ki, Prezident İlham Əliyev DİF-də dövlət başçısı kimi ilk dəfə 2007-ci ilin yanvarında iştirak edib. Forum "Güclərin qlobal balansının yerdəyişməsi" devizi altında keçirilib. 25 yanvar 2007-ci ildə Davos Forumu çərçivəsində keçirilən "Neft geosiyasətinin artan əhəmiyyəti" mövzusunda keçirilən iclasda Azərbaycan Prezidenti İlham Əliyev çıxış edib. Dövlət başçısı ölkədə qlobal enerji layihələrinin həyata keçirildiyini vurğulayıb, bunun bütün dünya üçün əhəmiyyətli olduğunu bildirib. Səfər çərçivəsində İlham Əliyev Dünya İqtisadi Forumunun icraçı prezidenti Klaus Şvabla da görüşüb.

23 yanvar 2008-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev ikinci dəfə Davos Forumunda iştirak etmək üçün İsveçrədə işgüzar səfəri zamanı bir çox ölkələrin dövlət və hökumət başçıları ilə danışıqlar aparıb. Dövlət başçısı forum çərçivəsində təşkil olunan "Energetika sənayesində günəş enerjisinin rolu" mövzusundakı əsas iclasda iştirak edib. İclasda iqlim dəyişmələrinə təsir göstərən amillərin aradan qaldırılmasının, atmosferə buraxılan karbon qazının azaldılmasının, gələcəkdə enerji sahəsində səmərəli əməkdaşlığın genişləndirilməsinin zəruriliyi vurğulanıb.

28 yanvar - 2 fevral 2009-cu il tarixdə Davos şəhərində 39-cu Dünya İqtisadi Forumu keçirilib, müasir dövrün siyasi-iqtisadi problemləri, qlobal inkişafın əsas problemlərinin müzakirəsi və həlli üçün işgüzar tərəfdaşlığın genişlənməsinə yardım məsələləri diqqət mərkəzində olub. Prezident İlham Əliyev Davos İqtisadi Forumu çərçivəsində "Böyük oyun təkrarlanır" mövzusunda iclasda iştirak edib.

27-28 yanvar 2010-cu il tarixdə dövlətimizin başçısı növbəti dəfə Davos Forumunda iştirak edib. Forum çərçivəsində Prezident "Neft-qaz geosiyasəti: yeni sərhədlər" mövzusunda sammitdə, "Qlobal enerji mənzərəsi" mövzusuna həsr olunan iclasda iştirak edib. Prezident İlham Əliyev həmçinin Sloveniya Prezidenti Danilo Türk, Latviya Prezidenti Valdis Zatlers, İsveçrə Prezidenti Doris Loyhard, Polşa Prezidenti Lex Kaçinski ilə görüşüb, tərəfləri maraqlandıran məsələlər ətrafında müzakirələr aparıb.

Azərbaycan Prezidentinin rəhbərliyi ilə nümayəndə heyətinin də iştirak etdiyi sayca 41-ci olan "Yeni reallıq üçün ümumi normalar" devizi altında keçirilən 2011-ci il Dünya İqtisadi Forumu 26-29 yanvar tarixlərində Davos şəhərində baş tutub. Forum müasir dövrün siyasi-iqtisadi problemlərinin, qlobal inkişafın doğurduğu əsas problemlərin həlli üçün işgüzar tərəfdaşlığın genişlənməsi ilə bağlı, o cümlədən yeni iqtisadi perspektivlər və hərtərəfli inkişaf siyasətinin müəyyənləşdirilməsi, "Böyük 20"liyin gündəliyinin dəstəklənməsi, qlobal risklərdən qorunma şəbəkəsinin yaradılması kimi məsələlərə həsr edilib. 2013-cü il yanvarın 24-də İsveçrənin Davos şəhərində öz işinə başlayan 43-cü Ümumdünya İqtisadi Forumunun əsas müzakirə mövzusu "Dayanıqlı dinamika" olub. Forum çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Ueli Maurerin görüşü keçirilib. Görüşdə Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olunub, ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə, xüsusilə də enerji sektorunda inkişaf perspektivlərinin önəmi vurğulanıb.

2014-cü ildə "Avrasiya - yeni sərhədlər" mövzusunda sessiyanın keçirildiyi Davos İqtisadi Forumunda Prezident İlham Əliyev iştirak edib. Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Didye Burkhalterin görüşü olub. Azərbaycan ilə İsveçrə arasında ikitərəfli siyasi və iqtisadi münasibətlərə dair fikir mübadiləsi aparılıb.

Növbəti ildə - 2015-ci ildə İqtisadi Forumun 45-ci toplantısı yanvarın 23-də öz işinə başlayıb. Yanvarın 24-dək davam edən yubiley toplantısının mövzusu "Yeni qlobal kontekst" adlanıb. "Zorakı ekstremizmin öhdəsindən gəlinməsi" mövzusundakı sessiyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak edib. Dövlət başçısı çıxışında beynəlxalq aləmdə təzahür edən terror hallarına toxunub, terrorizmin müxtəlif təzahürləri ilə mübarizədə Azərbaycanın üzləşdiyi problemlərdən danışıb.

Prezident İlham Əliyevin rəhbərliyi altında nümayəndə heyətinin də iştirak etdiyi sayca 46-cı olan "Dördüncü Sənaye İnqilabının Mənimsənilməsi" mövzusuna həsr olunan Dünya İqtisadi Forumu 2016-cı il yanvarın 22-də Davos şəhərində keçirilib. "2016-cı il üçün mütləq xarakterli tövsiyələr" adı altında keçirilən forumda neft ixracı ilə məşğul olan ölkələrdə neftdən asılı olmadan gəlir əldə etməyin yolları müzakirə edilib. İlham Əliyevin tədbir çərçivəsində İsveçrə Konfederasiyasının Prezidenti Yohan Şnayder-Amman ilə görüşündə beynəlxalq aləmdə vəziyyət, neftin qiymətinin aşağı düşməsi fonunda gedən iqtisadi proseslər, maliyyə və iqtisadi sahələrdə böhran ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycan Prezidenti bu tədbirdə 10-cu dəfə iştirak edirdi və elə bu münasibətlə Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab dövlət başçısına Davos fəxri üzvlər klubunun nişanını təqdim edib.

2017-ci il İlham Əliyev Dünya İqtisadi Forumunda on dəfədən artıq iştirak edən rəhbər şəxslər üçün təşkil olunan qəbulda iştirak edib. "Parçalanmış dünyada birgə gələcəyin yaradılması" mövzusuna həsr olunan 48-ci Dünya İqtisadi Forumu 2018-ci il yanvarın 24-də keçirilib. Prezident İlham Əliyev İqtisadi Forum çərçivəsində "Strateji baxış: Avrasiya" panelindəki müzakirələrdə çıxış edib və həm ölkəmiz, həm də region və dünya üçün müstəsna əhəmiyyətə malik olan çox mühüm məsələlərlə bağlı fikirlər söyləyib.

2019-cu il yanvarın 21-də Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfərində Azərbaycan Prezidenti İlham Əliyev Davosda Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşüb. Görüşdə Azərbaycan Hökuməti və Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi arasında ilk dəfə olaraq əməkdaşlığın təməli qoyulub. Bu məqsədlə Azərbaycan Prezidenti İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti Borge Brende arasında əməkdaşlıq sazişinin təntənəli mübadiləsi həyata keçirilib.

2023-cü ilin önəmli hadisələrindən biri Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrədə keçirilən Dünya İqtisadi Forumunun (Davos Forumu) illik toplantısında iştirak etməsi və forum çərçivəsində çoxsaylı görüşlər keçirməsi, çıxış etməsi ilə yadda qaldı. Yanvarın 16-dan 20-dək keçirilən Davos İqtisadi Forumu bu baxımdan Azərbaycan üçün əhəmiyyətli hesab edilir. Hər il yanvar ayında keçirilən bu böyük, nüfuzlu toplantı iqtisadi forum adlansa da əsas mahiyyət etibarilə müasir dünya düzəninin, iqtisadi-texnoloji inkişaf siyasətinin müzakirəsi, proqnozlaşdırılması və bir çox gələcək proseslərin, siyasi-iqtisadi perspektivlərin razılaşdırılması baxımından dialoq vasitəsidir. Davos İqtisadi Forumu 2023-cü ildə son dövrün ən təsirli geosiyasi və geoiqtisadi məsələlərin qabarıq olduğu məqamda "Fraqmentasiya olmuş dünyada əməkdaşlıq" mövzusu ilə keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "Avrasiya Orta Dəhlizi: Yoldan magistrala" mövzusunda panel iclasında iştirak edib, panel iclasın moderatorunun suallarını cavablandırıb.

Prezidentin hər səfəri ölkələr arasındakı münasibətlərin daha yüksələn xətlə inkişafına təkan verir. Ümumiyyətlə, Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət istər beynəlxalq təşkilatlar, forumlar, istərsə də ayrı-ayrı ölkələr səviyyəsində Azərbaycanı inanılmış və güvənli bir tərəfdaşa çevirib.

**Mustafa KAMAL,**
**"Respublika".**